**Menecment**

Menecment ixtisası çox geniş karyera imkanları olan gələcəyi perespektivli sahələrdən biridir. Menecment ixtisası üzrə məzun olan tələbələr müxtəlif dövlət qrumlarında, biznes və sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatlarda layihə meneceri, insan resursları meneceri, əməliyyatların idarə edilməsi üzrə menecer, satınalmalar üzrə menecer, dövlət və bələdiyyə qulluqçusu, sahibkar, ictimaiyyətlə əlaqələr üzrə menecer işləyə bilər.

**Marketinq**

Marketinq ixtisası üzrə Təhsil Proqramının məzunları müxtəlif şirkətlərdə marketinq mütəxəssisi, satış mütəxəssisi, satış meneceri, brend menecer, reklam mütəxəssisi, ictimaiyyətlə əlaqələr, marketinq tədqiqatçısı, logistika mütəxəssisi, biznes analitik, müştəri əlaqələri idarəçisi, rəqəmsal marketinq mütəxəssisi, sosial media meneceri, brendinq mütəxəssisi, məhsul meneceri, istehsalat mütəxəssisi, databaza marketinqi mütəxəssisi, satınalma meneceri peşələrində işləyə bilərlər.

**Biznesin idarə edilməsi**

Biznesin idarə edilməsi ixtisası praktik baxımdan biznes mühitinin dərindən mənimsənilməsini və qeyri-müəyyən biznes mühitində strategiyanın formalaşmasını öyrədir, həmçinin rəqabət qabiliyyətli idarəetmə qərarlarının qəbul edilməsi sirrlərini aşılayır. İxtisas üzrə tədris edilən fənlər müxtəlif regionlarda yeni biznes fəaliyyəti göstərən şirkətlərə vergi yükü və hüquqi iddia arasında (trade-off) düzgün seçim eməyi, coğrafi seqmentlərdə iqtisadi sistemin özəlliklərini öyrənməyi, qlobal təchizat şəbəkəsinin idarəedilməsini və beynəlxalq maliyyə riskinin idarəedilməsinin nəzəri və praktik həlli yollarının müəyyənləşdirilməsini təmin edir.

**Beynəlxalq ticarət və logistika**

Beynəlxalq ticarət və logistika ixtisası beynəlxalq ticarət əməliyyatlarının və beynəlxalq yükdaşımalarının həyata keçirilməsinin təşkili və texnikası ilə bağlı nəzəri biliklər və praktiki bacarıqlar verən ixtisasdır. Bu ixtisas üzrə əldə edilən biliklər mütəxəssislərə nəqliyyat növlərinin seçilməsi, marşrutun optimallaşdırılması, yükləmə-boşaltma işlərinin təşkili, anbarlaşdırma barədə zəruri qərarlar qəbul etmək imkanı verir.

Bu ixtisasdan məzun olanlar nəqliyyat-logistika mərkəzində, gömrük işində, limanlarda, nəqliyyat və nəqliyyat-ekspedisiya, idxal və ixracla məşğul olan müəssisələrdə, yerli və beynəlxalq şirkətlərin nəqliyyat və təchizat bölmələrində işləyə bilərlər.

**Statistika**

Statistika cəmiyyətdə baş verən bütün prosesləri iqtisadiyyatda, mədəniyyətdə, əhalinin həyat səviyyəsində, ictimai həyatın formalaşmasında bütün dəyişiklikləri xarakterizə edir. Statistikanın əsas obyekti cəmiyyət və onun daxilində gedən proseslər və inkişaf nümunələridir.

Statistika müasir iqtisadiyyatda, maliyyədə, menecmentdə peşəkar səviyyədə formalaşmasında baza kimi çıxış edir.

Bu sahə bizi gələcəyə doğru aparır. Çünki bugünkü vəziyyət bizə dövrün necə olduğunu göstərir. Bugünün aktual məsələlərini (siyasi, iqtisadi) təhlil etməsək, biz gələcəyə irəliləyə bilmərik. Həmçinin günümüzdə "Data Analitika" sahəsinin inkişafı, bu sahə üzrə ixtisaslı kadrlara qlobal olaraq tələbatın çoxalması, statistika elminin aktuallığını bir daha vurğulayır. Çünki böyük həcmli dataların analizini statistika elmi üzrə biliklər olmadan həyata keçirmək qeyri-mümkündür. Bütün bunları nəzərə alaraq sahəni yüksək perspektivli sahələrdən biri hesab etmək olar.

**İqtisadiyyat**

İqtisadiyyat ixtisası iqtisadiyyatın bütün sahələrini əhatə edən geniş spektrli, peşəkar mütəxəssis yetişdirir. Bu ixtisas üzrə təhsil alan tələbələrə iqtisadiyyatı regional və sektorial olaraq təhlil etmək, həmçinin iqtisadiyyatın makroiqtisadi mənzərəsini, sosial-iqtisadi göstəricilərin dinamikasını; iqtisadi siyasətin əsas konturlarını təhlil aparmağı bacarığı aşılanır. İxtisas çəçivəsində kənd təsərrüfatı, sənaye və xidmət sektorunun iqtisadi inkişafdakı rolunu və əhəmiyyətini üzrə biliklər verilir.

Məzunlar dövlət strukturlarının müvafiq bölmələrində, ictimai əhəmiyyətli qurum və şirkətlərdə, xarici investisiyalı müəssisələrdə, kiçik, orta və iri təsərrüfatçılıq subyektlərində, xarici iqtisadi fəaliyyətlə məşğul olan şirkətlərdə və digər biznes strukturlarında fəaliyyət göstərə bilirlər.